Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 13 ” may tarixli
158 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Qeyri-rezident fiziki şəxslərin akkreditasiyadan keçirilməsi qaydası və həmin şəxslərə dair tələblər

## 1. Ümumi müddəa

“Qeyri-rezident fiziki şəxslərin akkreditasiyadan keçirilməsi qaydası və həmin şəxslərə dair tələblər” (bundan sonra – Qayda) “Qiymətləndirmə fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 5.4-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və qeyri-rezident fiziki şəxslərin akkreditasiyasının keçirilməsi qaydasını və həmin şəxslərə dair tələbləri müəyyən edir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **qiymətləndirmə fəaliyyəti** - Qanunla müəyyən edilmiş hallarda, habelə sifarişçinin müəyyən etdiyi məqsədlər üçün qiymətləndirmə obyektinin dəyərinin qiymətləndirici tərəfindən müəyyən edilməsi üzrə fəaliyyət;

2.1.2. **qeyri-rezident -** xarici ölkədə qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq hüququ olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (Azərbaycan Respublikasının ərazisində daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istisna olmaqla);

2.1.3. **akkreditasiya** - qiymətləndirmə obyektinin qiymətləndirilməsi üzrə fəaliyyət göstərmək üçün qeyri-rezident fiziki şəxslərin bu Qayda ilə müəyyən edilmiş tələblərə uyğunluğunun akkreditasiya orqanı tərəfindən təsdiqi;

2.1.4. **akkreditasiya şəhadətnaməsi** - qeyri-rezident fiziki şəxslərin bu Qayda ilə müəyyən edilmiş tələblərə uyğunluğunu təsdiqləyən və onlara Azərbaycan Respublikasının ərazisində qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq hüququ verən sənəd;

2.1.5. **akkreditasiya orqanı** - Qanunun 18-ci maddəsində nəzərdə tutulan, qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq istəyən qeyri-rezident fiziki şəxslərin akkreditasiyasını həyata keçirən orqan - Qiymətləndiricilər Palatası.

## 3. Qeyri-rezident fiziki şəxslərə dair tələblər

3.1. Ali təhsilə və 3 (üç) ildən az olmayan ümumi iş stajına malik xarici ölkədə qiymətləndirmə fəaliyyəti ilə məşğul olan qeyri-rezident fiziki şəxslər Azərbaycan Respublikasının ərazisində qiymətləndirmə fəaliyyəti ilə məşğul ola bilərlər.

3.2. Qəsdən ağır və xüsusilə ağır cinayət, habelə xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən asılı olmayaraq korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan digər cinayət, həmçinin iqtisadi sahədə cinayət törətməyə görə məhkumluğu ödənilməmiş və ya götürülməmiş, barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı olan qeyri-rezident fiziki şəxslər qiymətləndirici ola bilməzlər.

## 4. Qeyri-rezident fiziki şəxslərin akkreditasiya orqanına müraciəti

4.1. Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq istəyən qeyri-rezident fiziki şəxslər akkreditasiyanın aparılması üçün akkreditasiya orqanına "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada ərizə (əlaqə məlumatları göstərilməklə) təqdim edirlər.

4.2. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

4.2.1. qeyri-rezidentin şəxsiyyətini təsdiq edən sənədin (pasport, şəxsiyyət vəsiqəsi və s.) surəti;

4.2.2. biometrik identifikasiya tələblərinə uyğun 1 ədəd rəngli fotoşəkil (3x4 sm ölçüdə);

4.2.3. müraciəti qeyri-rezidentin nümayəndəsi etdikdə, qeyri-rezident adından çıxış etmək səlahiyyəti olan şəxsə verilən etibarnamə;

4.2.4. qeyri-rezident fiziki şəxsə xarici ölkədə verilmiş aşağıdakı sənədlərin qanunvericiliklə müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş və Azərbaycan dilinə tərcüməsi notariat qaydasında təsdiq edilmiş surəti:

4.2.4.1. ali təhsil haqqında sənəd (diplom);

4.2.4.2. 3 (üç) illik iş stajına malik olmasını təsdiq edən sənəd;

4.2.4.3. məhkumluq barədə sənəd;

4.2.4.4. qeyri-rezident fiziki şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməməsi haqqında sənəd;

4.2.4.5. qeyri-rezident fiziki şəxsə qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq hüququ verən sənəd.

4.3. Qeyri-rezident fiziki şəxsin müraciətinə əlavə edilməli olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar qeyri-rezident fiziki şəxsdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi qeyri-rezident fiziki şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya qeyri-rezident fiziki şəxs tərəfindən təmin edilir.

4.4. Akkreditasiya olunmaq üçün qeyri-rezident fiziki şəxslərin müraciəti, sənədlərin və ya məlumatların tamlığı akkreditasiya orqanı tərəfindən 3 (üç) gün müddətində yoxlanılır (bu Qaydanın 4.3-cü bəndinin tələbləri nəzərə alınmaqla) və təsdiq edildikdən sonra qeyri-rezident fiziki şəxsin müraciəti qeydə alınır. Ərizəyə əlavə olunmalı sənədlərin siyahısında çatışmazlıq (bu Qaydanın 4.2-ci bəndinin tələbi nəzərə alınmaqla) aşkar olunduğu halda qeyri-rezident fiziki şəxsə bu barədə 3 (üç) gün müddətində elektron bildiriş göndərilir və ya əlaqə vasitəsilə məlumat verilir. Qeyri-rezident fiziki şəxsə çatışmazlıqları aradan qaldırmaq üçün 3 (üç) gün müddət verilir. Müraciətin qeydə alınmamasına səbəb olan çatışmazlıqlar aradan qaldırıldıqdan sonra müraciət qeydə alınır. Çatışmazlıqlar 3 (üç) gün müddətində aradan qaldırılmadıqda, qeyri-rezident fiziki şəxsin müraciəti qeydə alınmır.

## 5. Qeyri-rezident fiziki şəxslərin bu Qaydanın tələblərinə cavab verməsinin akkreditasiya orqanı tərəfindən araşdırılması

5.1. Bu Qaydanın 4.2-ci bəndində nəzərdə tutulmuş sənədlər və məlumatlar qeyri-rezident fiziki şəxs tərəfindən təqdim olunduqda, sənədlərdə və məlumatlarda çatışmazlıqlar aşkar edilmədikdə və ya mövcud çatışmazlıqlar aradan qaldırıldıqda,

qeyri-rezident fiziki şəxsin bu Qaydanın tələblərinə cavab verməsinin akkreditasiya orqanı tərəfindən araşdırılmasına başlanılır.

5.2. Qeyri-rezident fiziki şəxsin bu Qaydanın tələblərinə cavab verməsinin akkreditasiya orqanı tərəfindən araşdırılmasına başlanıldığı barədə məlumat müraciət etmiş şəxsə 3 (üç) iş günü müddətində göndərilir.

## 6. Akkreditasiya orqanı tərəfindən yekun qərarın qəbul edilməsi

6.1. Qeyri-rezident fiziki şəxsin akkreditasiya olunması haqqında və ya akkreditasiyadan imtina barədə yekun qərarın qəbul edilməsi müddəti müraciətin qeydiyyata alındığı gündən başlayaraq 15 (on beş) iş günündən çox olmamalıdır.

6.2. Qeyri-rezident fiziki şəxs tərəfindən təqdim olunmuş ərizəyə və ona əlavə edilmiş sənədlərə baxılmasının nəticəsi əsasında, həmçinin Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş qiymətləndirmə fəaliyyətinin istiqamətləri nəzərə alınmaqla qeyri-rezident fiziki şəxsin akkreditasiya olunması haqqında və ya akkreditasiyadan imtina barədə yekun qərar qəbul edilir.

6.3. Akkreditasiya olunması haqqında yekun qərar qəbul edilmiş qeyri-rezident fiziki şəxsə akkreditasiya şəhadətnaməsi 2 (iki) iş günündən gec olmayaraq təqdim edilir. Akkreditasiya şəhadətnaməsində onun qeydiyyat nömrəsi, şəhadətnaməni verən qurumun adı, qiymətləndirmə fəaliyyətinin istiqaməti, akkreditasiyadan keçmiş fiziki şəxsin soyadı, adı və atasının adı, şəhadətnamənin verildiyi tarix və etibarlılıq müddəti qeyd edilir. Akkreditasiya şəhadətnaməsi akkreditasiya orqanının səlahiyyətli şəxsi tərəfindən onun soyadı, adı və vəzifəsi göstərilməklə imzalanır.

6.4. Akkreditasiya şəhadətnaməsinin qüvvədəolma müddəti 2 (iki) ildir. Akkreditasiya şəhadətnaməsinin qüvvədəolma müddəti bitdikdən sonra yeni şəhadətnamənin alınması üçün bu Qaydanın tələblərinə uyğun olaraq ümumi qaydada müraciət edilə bilər.

6.5. Akkreditasiya şəhadətnaməsini aldıqdan sonra bu şəhadətnamədə göstərilən məlumatlarda hər hansı dəyişiklik baş verdikdə şəhadətnamənin sahibi həmin əsasların yarandığı gündən 5 (beş) gündən gec olmayaraq şəhadətnamənin yenidən rəsmiləşdirilməsi üçün akkreditasiya orqanına müraciət etməlidir. Müraciətə şəhadətnamənin yenidən rəsmiləşdirilməsi əsaslarını təsdiq edən sənədlər əlavə edilir. Müraciətə daxil olduğu gündən 10 (on) gün müddətində akkreditasiya orqanı tərəfindən baxılır, müvafiq düzəlişlər edilərək yenidən rəsmiləşdirilmiş şəhadətnamə ərizəçiyə təqdim edilir və əvvəlki şəhadətnamə ərizəçi tərəfindən akkreditasiya orqanına qaytarılır.

6.6. Akkreditasiya şəhadətnaməsi yararsız vəziyyətə düşdükdə və ya itirildikdə onun sahibi həmin şəhadətnamənin dublikatının verilməsi üçün akkreditasiya orqanına ərizə ilə müraciət edir. Akkreditasiya orqanı ərizənin daxil olduğu tarixdən 5 (beş) gün müddətində şəhadətnamənin eyni hüquqi qüvvəyə malik dublikatını hazırlayaraq ərizəçiyə təqdim edir. Akkreditasiya şəhadətnaməsinin dublikatının yuxarı sağ tərəfində “Dublikat” sözü yazılır və onun verilmə tarixi qeyd edilir.

6.7. Akkreditasiya şəhadətnaməsinin verilməsindən imtina olunduqda, bu barədə qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində şəhadətnamə almaq istəyən şəxsə təqdim edilir. Akkreditasiya şəhadətnaməsinin verilməsindən imtina şəxsin yenidən müraciət etməsinə mane olmur.

6.8. Akkreditasiya şəhadətnaməsi aşağıdakı hallarda ləğv edilir:

6.8.1. şəhadətnamə sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

6.8.2. şəhadətnamənin verilməsi üçün təqdim edilmiş sənədlərdə sonralar düzgün olmayan məlumatlar aşkar olunduqda;

6.8.3. bu Qaydanın 6.10-cu bəndində nəzərdə tutulan hallarda;

6.8.4. Qanunun 24.1.4-24.1.7-ci maddələrində nəzərdə tutulan hallarda.

6.9. Akkreditasiya şəhadətnaməsi bu Qaydanın 6.8-ci bəndində göstərilən hallara istinad edilməklə, akkreditasiya orqanının qərarı ilə ləğv edilir. Həmin qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində şəhadətnamənin sahibinə təqdim edilir.

6.10. Akkreditasiya şəhadətnaməsi əldə etmiş qeyri-rezident fiziki şəxs tərəfindən qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunvericiliyinin və qiymətləndiricinin etik davranış qaydalarının tələbləri pozulduqda Qiymətləndiricilər Palatası tərəfindən həmin şəxs barəsində Qanunda nəzərdə tutulmuş intizam tənbehi tədbirləri tətbiq edilir, həmçinin Qanunda nəzərdə tutulmuş hallarda fəaliyyətinə xitam verilir.

6.11. Qeyri-rezident fiziki şəxs akkreditasiya orqanının vəzifəli şəxslərinin hərəkətlərindən (qərarlarından) inzibati qaydada və məhkəməyə şikayət verə bilər.